# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

Oktyabrın 9-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.

MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən bildiriblər ki, əvvəlcə komissiyanın 2015-ci il 2 oktyabr tarixində keçirilmiş iclasının protokolu təsdiq edilib. Sonra MSK-nın qərarı ilə 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi dairə seçki komissiyasının tərkibində dəyişiklik edilib.



İclasda 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə də baxılıb. Komissiya üzvlərinin müzakirəsindən sonra müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda cari məsələlərə də baxılıb.

**AZƏRTAC**